Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Azərbaycan qadınının gözəllik rəmzi - Kəlağayı

26 Noyabr – Azərbaycan Kəlağayısı Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

Bakı – 2023

**Tərtibçi:** **Aynurə Əliyevа**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**“Azərbaycan qadınının gözəllik rəmzi - Kəlağayı”-** 26 Noyabr – Azərbaycan Kəlağayısı Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli adına Respublika Uşaq Kitabxanası; tərtib edən A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2023. – 33s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

# Giriş

*...Həyatda uğurla yaşamaq üçün xalqımızın, millətimizin milli-mənəvi dəyərlərinə sadiq olmaq lazımdır, bu milli-mənəvi dəyərləri ümumbəşəri dəyərlərlə birləşdirib müasir həyat tərzi keçirmək lazımdır.*

**Ümummilli lider Heydər Əliyev**

Azərbaycan milli geyimləri xalqın maddi və mənəvi mədəniyyətinin çox çətin və uzun çəkən inkişaf gedişi nəticəsində yaranmışdır. Geyim xalqın tarixilə çox sıx əlaqədardır. Belə ki, xalqın maddi mədəniyyətini, xalqa xas olan xüsusiyyətləri daha çox əks etdirir və xalqın sarsılmaz etnik nişanələrinə aiddir. Xalqın etnik, tarixi, xalq yaradıcılığının bədii xüsusiyyətləri, onların müxtəlif halda formalaşmaları, bədii bəzək naxışları, toxuculuq xalq geyimində öz əksini tapmışdır.

Azərbaycan XVII – əsrdə yaxın Şərqin ən böyük ipəkçilik ölkəsi kimi tanınırdı və Şirvan əyaləti Azərbaycanda ən iri ipəkçilik rayonu idi. Bundan başqa Azərbaycanın Şamaxı, Basqal, Gəncə, Şəki, Şuşa rayonlarında da ipəkçilik istehsalı çox inkişaf etmişdir. Bu rayonlarda ipəkdən çox qəşəng, bəzəkli, naxışlı, zərif qadın baş örpəkləri istehsal olunurdu. Geyimin stili onun yiyəsinin ailə vəziyyətini və yaşını əks etdirirdi. Subay qızların geyimləri evli qadınların geyimlərindən fərqlənirdi. Cavan qızlar daha parlaq və qəşəng geyinərdilər.

Kişi və qadın geyimləri Azərbaycanın bütün etnik, tarixi zonalarında eyni idi. Bununla belə kişi geyimləri geyimin yiyəsinin sinfini əks etdirirdi.

Uşaq geyimi öz forması ilə böyük geyimi ilə eyni idi və onlardan yalnız bəzi xüsusiyyətləri və ölçüsü ilə fərqlənirdi.

Azərbaycan qadın geyimi XIX - əsrdə, XX - əsrin əvvələrində alt və üst geyimlərdən ibarət idi. Üst geyimi isə öz

növbəsində çiyinüstü və bel geyimlərindən ibarət idi. Qadın çiyinüstü geyimi üst köynəyindən, arxalıqdan, çəpkəndən ibarət idi. Üst köynəyinin düz biçimi, çiyini tikişsiz və rəngbarəng qoltuqaltından ibarət idi. Bu köynəklər əsasən qanovuz və fay ipək parçalarından tikilirdi.

*Çəpkən* – çiyinüstü, astarlı və yalançı qolları malik olan qadın üst geyimidir. Bu geyim tirmədən, məxmərdən və bir neçə növ ipək parçalarından tikilirdi.

Ləbbadə – çiyinüstü üst gödəkçəsidir. Bu geyim sırıqlı astarda olur, tirmədən, məxmərdən və başqa parçalardan tikilirdi.

*Güləcə* – qadın çiyinüstü üst geyimidir. Bu geyim astarlı olur və tirmədən, məxmərdən tikilirdi. Baharı – sırıqlı astarda qadın çiyinüstü üst geyimidir. Əsasən məxmərdən tikilirdi.



*Kürdü* – qadın üst geyimidir. Bu geyim tirmədən, məxmərdən tikilirdi, xəz dəri və sıx naxışlarla bəzənilirdi.

*Eşmək* – qadın sırıqlı üst geyimidir, tirmədən və məxmərdən tikilirdi. Bu geyimin yaxası, ətəyi və qolları safsar xəzdərisilə, qızılı şəbəkə torla və şəridlə bəzənilirdi. Qadın bel üst geyimi – bir neçə tumandan, cütbalaqdan və çaxçurdan ibarət idi. Şəhərlərdə qadın evdən çıxanda tumanın üstündən çaxçur geyərdilər.

*Kəlağayı* — Azərbaycanda qadınlara məxsus, ipək sapdan toxunmuş dördkünc formalı baş örtüyü. Azərbaycanın qərb zonasında kəlağayıya bəzən çarqat da deyilir. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın ənənəvi kəlağayıçılıq mərkəzləri müxtəlif

siyasi və sosial-iqtisadi səbəblər üzündən, xüsusilə də Rusiyadan daxil olan ucuz fabrik mallarının kustar karxana məhsullarını sıxışdırması nəticəsində mövqeyini dəyişmiş və kəlağayıçılıq tədricən yalnız iki mərkəzdə – Basqal və Gəncədə cəmləşməyə başlanıb.

Qadın baş geyim növü – kəlayağı zərif lif və iplərdən toxunur, materialına və ölçüsünə görə fərqlənir.

Əvvəllər toxuculuq dəzgahlarında hazırlanan örpəklər yaş fərqinə və zümrə mənsubiyyətinə görə müxtəlif çeşid və rənglərdə olurdu. Orta əsrlərdə Azərbaycanda istehsal edilən örpəklər xarici ölkələrə satılırdı.

Keçmişdə qiymətli daş-qaşla bəzədilmiş və xalis qızıl, gümüş tellərdən toxunmuş örpəklər də mövcud idi.

Gəncə, Şəki, Şamaxı və başqa şəhərlərimizdə toxunan qadın örpəkləri arasında başlıca yer tutan kəlağayılar istehsal olunduğu məkanlara görə bir-birindən seçilirdi.

Bu gün kəlağayı istehsalı ilə ən çox "Şəki İpək" ASC məşğul olur. 26 Noyabr – Azərbaycan Kəlağayısı Günüdür. Bu münasibətlə hazırladığımız vəsait iki hissədən ibarətdir. I hissə ***"Xalq sənəti nümunəsi – Kəlağayı"*** adlanır. Vəsaitdə dahi mütəfəkkirin həyat və yaradıcılığından bəhs edilir. Milli kəlağayı sənətinin gənclər arasında təbliğinin təşkilindən söhbət açılır. II hissədə isə kəlayağı və ümumiyyətlə milli dəyərlərimizlə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

Xalqımızın sanballı tarixi və milliliyimizin uzaq keçmişini, milli xüsusiyyətlərimizin əsas daşıyıcılarından biri olan kəlağayımızın ənənəsini təbliği ilə əlaqədar olaraq, F.Köçərli adına kitabxanada bir sıra tədbirlər; kitab müzakirəsi, oxucularla söhbət, konfrans, icmal, dəyirmi masa, rəsm və şeir müsabiqəsi, səhnəcik, muzeylərə səyahət, ədəbi-bədii gecə və s. keçirilə bilər. İrsimizin və milliliyimizin tarixini

gənc nəslə və oxuculara çatdırmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil oluna bilər. Sərgidə mövzu ilə bağlı çəkilmiş foto stendi, bu mövzuya dair yazılmış kitablar ilə yanaşı araşdırmalar, kəlağıya ithaf edilən şeirlər, kəlamlar və dövrü mətbuatda nəşr olunan məqalələr öz yerini almaqdadır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Xalq sənəti nümunəsi – Kəlağayı", "Ənənəvi baş örpəyi-kəlağayı", "Sirli-sehirli dünyamız", "Kəlağayı millətin qan yaddaşıdı", "Milli dəyərlərimizdən olan kəlağayı", "Örpək — qadın baş geyim növü", "Kəlağayı UNESCO-nun Qeyri-maddi mədəni irsin Reprezentativ Siyahısında", "İsmət və saflıq simvolu", "Əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə..." və s.

26 Noyabr – Azərbaycan Kəlağayısı Günü ilə əlaqədar bir sıra tədbirlər keçirilə bilər. Bu tədbirlərdən biri də şagirdlər arasında keçirilən **"oxucularla söhbət"** dir və söhbət *"Ənənəvi baş örpəyi-kəlağayı"* adlanır. Oxucularla söhbət kitabxananın oxu zalında keçirilir. Tədbirdə qonaqlara və iştirakçılara Kəlayağı və onun tarixindən bəhs edilir.

***Kitabxanaçı:*** 26 Noyabr – Azərbaycan Kəlağayı Günüdür. 26 Noyabr Azərbaycan Kəlağayısı Günü bütün dünyada beynəlxalq səviyyədə qeyd olunur. 2014-cü il noyabrın 26-da Azərbaycan kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin keçirilən iclasında "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısı"na daxil edilmişdir.

Kəlağayı bağlı mövzunu birinci xanım, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın dəstəyi ilə Mədəniyyət və Turizm Nazirliyi hazırayıb. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və ölkəmizin UNESCO yanında Daimi Nümayəndəliyi, UNESCO üzrə Milli Komissiyanın birgə həyata keçirdiyi çoxşaxəli fəaliyyət

nəticəsində Komitə kəlağayı sənətinin Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi olduğunu beynəlxalq səviyyədə təsdiq etmiş olub.

Hazırda Kəlağayıdan başqa, Muğam ifaçılıq sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılıq sənəti UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısında yer alır.

***I İştirakçı:*** Zərif lif və tellərdən toxunan örpəklər materialına və ölçüsünə görə müxtəlif olmuşdur. Toxuculuq dəzgahlarında hazırlanan örpəklər yaş fərqinə və zümrə mənsubiyyətinə görə müxtəlif çeşid və rənglərdə hazırlanırdı. Azərbaycanda qədimdən istehsal olunan örpək son orta əsrlərdə xarici ölkələrə də ixrac edilirdi. Keçmişdə daş-qaşla bəzədilmiş və xalis qızıl, gümüş tellərdən toxunmuş örpəklər də yayılmışdı. Qadın örpəkləri arasında başlıca yer tutan kəlağayılar istehsal mərkəzlərinə görə (Gəncə, Basqal, Şəki, Şamaxı və s.) bir-birindən seçilirdi.

***II İşirakçı: Tarixçəsi*** **-** Örpəklər hər zaman qadın baş geyimləri içərisində xüsusi yer tutmuşdur. Əvvəllər örpəyi kustar üsulla toxuyurdular. Fabrikdə hazırlanmış satınalma örpəklər isə XIX əsrin sonlarına doğru dəbə minmişdir. Zərif lif və ipək tellərdən toxunmuş örpəklər materiallarına və ölçülərinə görə müxtəlif olduqları kimi, rənglərinə, üzərindəki naxışların harmonik səciyyəsinə görə də bir-birindən seçilirdi. Örpəklər hazırlanarkən yaş fərqi və zümrə münasibətləri də nəzərə alınırdı. Belə ki, keçmişdə başına örpək salmış qadının maddi durumu, mənsub olduğu sosial təbəqə, cavan və ya yaşlı olması ilk baxışdanca nəzərə çarpırdı. Etnoqraf A.Mustafayev yazır ki, Şirvanın varlı

qadınlarının yüksək qiymətləndirdiyi örpəklərdən biri "sərəndaz" olmuşdur. Onu əsasən toy-bayram günlərində örtürdülər. Sərəndazı başa qızıl sancaqla bərkidirdilər. Başqa vaxtlarda "naz-nazı", "bəlalə", "xaralı" kimi qiymətli ipək örpəklər də örtülürdü. Kübar qadınlar isə "bənarə" və "alafa" örpək örtürdülər. Adətən kübar qadınlar örpəyin rəngi ilə tumanın rəng uyğunluğuna xüsusi diqqət yetirərdilər.

Orta əsrlərdə, eləcə də XIX-XX əsrin əvvəllərində Azərbaycanda daş-qaşla bəzədilmiş, qızıl və gümüş tellərdən toxunmuş örpəklər yüksək təbəqə qadınlarının baş geyimləri dəstində başlıca yer tuturdu. Örpək sərbəst şəkildə başa örtülməkdən əlavə, çalma düzəldilməsində də istifadə olunurdu. Çalma bağlamaq üçün başa təsək qoyur, onun üstündən ləçək bağlayır və bundan sonra böyük bir örpək salıb çalma düzəldirdilər. Örpəyi diaqonal boyunca qatlayıb başa elə örtürdülər ki, onun qabaq hissəsi alını tuturdu. Bundan sonra onun kənar uclarını geriyə – boyunun arxasına aparıb, çarpaz şəkildə yenidən irəliyə qaytarır, burada yenidən çarpazlaşdırıb arxaya ötürür və orada bağlayırdılar.
Azərbaycanda yaşayan ingiloylar örpəyi bağlamaq üçün əvvəlcə onu çəp vəziyyətdə iki qatlayırdılar. Sonra onu tən ortadan alının üstündən başa salıb qanadlarından birini sağdan sola, digərini soldan sağa olmaqla boğazın altında dolayır və uclarını geriyə, kürəyin üstünə atırdılar. Bunun sayəsində qadının boğazı, sinəsinin yuxarı hissəsi və çiyinləri örpəyə bürünürdü. Örpək bu şəkildə bağlandıqda həm etik normalara əməl edilir, həm də soyuqdan qorunmaq olurdu.
***III İşirakçı*** - Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda saxlanan örpəklər onun ölçülərinə də aydınlıq gətirir. Belə ki, burada Gəncə-Qarabağ bölgəsinə aid edilən və qaz-qazı parçadan hazırlanan örpəyin uzunluğu 132 sm,

eni 53 sm, Şəkiyə mənsub olan digər bir örpəyin uzunluğu isə 177 sm, eni 50 sm-dir.

Örpəklər hazırlandığı parça materialına, rəng seçiminə, ölçülərinə, zümrə və yaş fərqinə görə fərqlənir.

"Kitabi-Dədə Qorqud" dastanında qadın baş geyimlərindən heç birinin adı çəkilmir. Ondan fərqli olaraq, orta əsrlərə aid mənbələrdə, xüsusilə Nizami Gəncəvinin "Xəmsə" sində Azərbaycan qadınları başı örpəkli və çalmalı təsvir olunur:

Çinlilər qaydası ilə başına Cəvahirlə bəzənmiş bir örpək salmışdı.

Örpək miniatür nümunələrində də təsvir olunur. Hətta örpəyin başa örtülməsinə görə qız və ərli qadın bir-birindən fərqləndirilir.

XVI-XVII əsrlərdə Azərbaycanda 7 növə yaxın qadın baş geyimi mövcud olmuşdur ki, bunların içərisində gözəl və əlvan naxışlı örpəklər xüsusilə seçilmişdir. XVIII əsr və XIX-XX əsrin əvvəllərində örpək kütləvi surətdə məişətə daxil olmuşdur. Azərbaycanda istifadə olunan örpəklərin çoxlu məhəlli-lokal növləri vardır. Belə ki, Şirvanda belə örpəklərin "sərəndaz", "naz-nazı", "qaz-qazı", "bəlalə", "xaralı", "alafa", "bənarə"; Lənkəran-Astara bölgəsində "Qaragilə", "Paxlava", "Yusif-Züleyxa", "Zəkiyyə"; Şəki-Zaqatalada "gülbəndi"; Quba-Xaçmazda "Zəkəriyyə", Naxçıvanda isə "Toksin", "Zərli örpək", "Baftalı örpək", "Bağdatı örpək" kimi növləri geniş istifadədə olmuşdur. Örpək Gürcüstandakı azərbaycanlılar arasında da dəbdə olan baş örtüyü idi. Türkiyədə ümumi adı "baş örtüyü" olsa da, qadınlar örpəyin "yazma", "böyük bəyaz", "çevrə" və "çar" kimi növlərini geyim dəstlərinə daxil etmişdilər.

26 Noyabr – Azərbaycan Kəlağayısı Günü münasibətilə kitabxanalarda keçiriləcək tədbirlərdən biri *"Kəlağayın ucu sarı"* adlı **şeir müsabiqəsi** ola bilər. Kitabxanaçı öncə mövzu

ilə bağlı şeir və materialları məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə başlayır. O, ilk olaraq milli dəyərimiz sayılan kəlağayı haqqında qısa məlumat verir. Kitabxaqnaçının çıxışından sonra iştirakçılar növbə ilə şeirini intonasiya ilə deyirlər. Tədbirin sonunda qirayəti ilə seçilən iştirakçı münsiflər tərəfindən mükafatlandırılır.
26 Noyabr – Azərbaycan Kəlağayı Günü ilə əlaqədar keçirilə biləcək tədbirlərdən biri *də "Azərbaycan ədəbiyyatında kəlağayı"* adlı **dəyirmi masadır.** Tədbir keçirilən zalda milli dəyərimiz olan kəlayağının yüz illərlə formalaşıb günümüzə qədər gəlib çatması barədə slayd göstərilir. Tədbirdə muzey işçiləri, şair və yazıçılar, sənət-söz adamları, alimlər, folklorşünas və tarixçilər iştirak edirlər.
Qonaqları salamlayaraq tədbiri açıq elan edən kitabxanaçı məlumat üçün sözü ədəbiyyat müəllimlərinə verir.
***I Ədəbiyyat Müəllimi:*** Dəyərli qonaqlar, məktəblilər, heç bilirsinizmi, Azərbaycan ədəbiyyatında ilk əsər yazıçı Natəvan Dəmirçioğlunun "Kəlağayı" hekayəsidir?
Gəlin bu hekayəni hamılıqla dinləyək.
- Bu kəlağayı sənə çox yaraşır. Hardan almısan?
- Axtarırdım, tapmışam.
- Bu vaxt bunu tapmaq çətin məsələdi. Özü də əvvəllkilər kimi baramadandır.
-Desəm inanmazsan. Elə bil mənə hay gəlmişdi. Hamıdan kəlağayı soruşurdum. Bacımın qaynanası, o birisi bacımın baldızı, baldızının nəsil nəcabətində kim var hamısı, özümüzünkülər, qaynanam, kəndin qarıları – daha adam qalmamışdı mən kalağayı istəməyəm. Qaynanam dedi: -

“Sənə nə rəng lazımdı?” Dedim:- “Nə rəng olur olsun. Ağ, qırmızı, noxudu, zoğalı”. Hələ soraq verən yox idi.
Bu yay kəndə gedəndə atamın qonşu kənddə yaşayan qohumu rəhmətə getmişdi. Atam ora hüzür yerinə getdi. Çox gec gəldi. Bir də gördüm atam tələsik böyük darvazanı açır. Bizdə iki qapı var. Balaca qapı, özümüz işlədən. Bir də böyük qapı, maşın-zad gələndə açılan. Atam darvazanı açdı. Bir maşın içəri girdi. Göy “Volqa” idı. Bu maşından bir qop-qoca kişi düşürtdülər. Gəlhagəl, gətirib eyvana çıxardılar kişini. Kişi işığı zəifləmiş, yığılmış gözlərilə hey ətrafına baxır, elə bir kimisə, nəyisə axtarır, ya da elə bil hər şeyə ayrıca diqqət verirdi.

Atam toğlu kəsib qonaqlıq etmək istədi. Kişi qoymadı. Samavara od saldıq, təzə dəm dəmlədik. Çay süfrəsində atam çağırdı, mən də oturdum.
Dedi:
- Bu ağsaqqalı təsadüfən tapmışam.
Adama elə gəlirdi ki, bu qocalığında kişi ağır eşidər. Kişinin qulağı darı dəlirdi. Göy, damarlı əlini qaldırıb atamın sözünü kəsdi:
- Sən məni yox, mən səni tapmışam.
Atam güldü:
- Sən deyəndi, ağsaqqal – dedi.
Orada çox söhbətlər oldu. Qısası budur ki, bu kişi balaca uşaq olanda, özü dediyi kimi «xırda uşaq» olanda onlar atamın babasıgildə - bəylik qapısında qapı qaravulçusu olublar. Elə orada bəylik qapısında yaşayırlarmış. Həyətdə balaca qulluqçu evi, nökər- naibin, qulluqçu-qaravulçunun yaşayış yeri olurmuş bəylik qapısında. Deyir:
-“Şura hökuməti” qurulanda, bolşeviklər gələndə bəylik quruluşu dağıldı. Biz də oradan köçürüldük. Nəyimiz vardı – yorğan-döşək, xalça-palaz, qab-qacaq, taxt, miz hamısını

səhər tezdən arabaya yüklədik, təzə yurda apardılar. Xanım bir-iki mis qazan, sini, teşt, bir yun palaz yükümüzə qatdı. Anam axşamtərəfi-ikindi vaxtı özünün bər - bəzəyni, əmanət şeylərini bir pambıq şalın arasına yığdı, düyünçələdi. Boxçanı sağ qoluna keçirdi, sol əlilə mənim əlimdən tutub bəylik qapısıyla sağollaşdı.
Evdə təkcə xanım vardı. Heç xanımı səsləmədi, utandı. Eləcə həyət-baca ilə vidalaşdı, halallaşdı. Bu mülkü, səltənəti ulu Tanrıya tapşırdı. Alaqapıdan çıxmaq istəyirdik ki, xanım eyvanın pəncərəsindən bizi səslədi. Anam geri qanrıldı. Mən də əlimi onun əlindən buraxıb geri döndüm. Xanım sakitcə bizə əl elədi. Anam yeyinərək geri qayıtdı. Xanım o tərəf bu tərəfə baxıb pəncərədən bir bükülü atdı. Anam bükülünü qoltuğunda gizlətdi. Şalının ucu ilə də üstünü örtdü.
Evə gəldik. Anam bükülünü çıxarıb mizin üstünə qoydu. Barmağını kip örtülü dodaqlarının üstünə vurdu üç dəfə. Bu o demək idi ki, bu haqda heç kimə heç nə demirsən. Otaqda ikimizdən başqa heç kəs yox idi. Tirmə şalın arasında beş qızıl pul, bir qolbağ, alt paltarı, iki dənə də kəlağayı var idi.
Pulu yəqin anam xərclədi, qolbağı 41-45 müharibəsində cəbhə fonduna verdi, tirmə şalı mən evlənəndə gəlinin başına atdı, alt paltarını geymiş olardı. İki kəlağayı bu gün də qatı açılmamış durur. Ya örtməyə utandı, ya şura hökumətindən qorxdu, ya da xanımdan yadigar saxladı. Day, orasını mən deyə bilmərəm. Amma onu bilirəm ki, lap son vaxtlar, qarı öləndən sonra qıza-gəlinə ha dedim ki, o örpəkləri örtün, dedilər "dəbi keçib, nəyimizə lazımdı". Arvadın sandığında durur. Öləndən sonra nəyi vardısa payladılar, yüyücüyə, mollaya verdilər. Kəlağayları mən qoymadım.
Sandığında durur. Əvvəlki qadınların saxlancı olurdu, indikilərinki bir mebeldi, onu da kişi də açır, uşaq da açır, ona görə xeyir-bərəkət göyə çəkilib.

Kişini axşam gəldiyi göy "Volqa"da yola saldıq. İki gündən sonra mən qonşuluqdakı taksi sürən oğlandan soruşdum ki, məni o kəndə neçə manata aparıb gətirərsən. Dedi beş demirəm, ondan aşağı nə verərsən ver. Mən də beş verdim. Gedəndə bir kisə un, beş kilo qənd, çay, konfet aldım, bir vedrə meyvə dərdirdim, qoydum maşına, balaca oğlumu da yanımca apardım, getdim həmin o qoca kişigilə. Kəlağayıları alıb gətirdim. Biri ağ, biri də bu qırmızı kəlağayılar idi. Dünyanın işinə bax ki, elə bil bu kəlağayıları axtarırmışam. İynə axtaran kimi axtarırdım. Demək bunlar məni gözləyirmiş.

- Bəs qoca kişi nə dedi siz bunları gətirməyə gedəndə.

- Nə deyəsiydi? Özü demişdi ki, nə vaxt istəsəniz gəlin aparın. Halal mal yiyəsini tapar. O mirasdı. Mirasın böyük, müqəddəs qüvvəsi var. O qoca, dünyagörmüş kişi çox qiymətli sözlər dedi. Dedi:

-"Sovet hökuməti" bizim buxara papağımızı, kəlağayımızı, sazımızı, atımızı, hələ silahımızı demirəm onu tamam aldı. Amma bu dörd şeyi bizdən qopardı. Çünki bu dördü ilə biz özümüzə çox oxşayırıq. Buxara papaq qeyrətdi, kişilikdi, kəlağayı xanımlıqdı, saz ruhdu, at da namusdu, hünərdi.

Bunlar bizdə var. Bunlar Azərbaycan türkünün özününküdür. Dalınca getdiyimiz, yelinə uçduğumuz millətlər var – ruslar, avropalılar, amerikalılar onlarda da çox üstünlüklər var, lap elə at da var. Amma bizdə olan elə dəyərlər var ki, onlarda min il bundan qabaq olmayıb, min il bundan sonra da olmayacaq. Onda get da qabağa, çat avropaya, amerikaya, kim sənə deyir getmə. Amma olanlarını itirmə. Çünki sənin olanla, sən özünsən.

Hamıdan seçilirsən, qaynayıb-qarışıb itməyəcəksək millətlər içində. Özünün olanları yeni etməyi, çağdaş etməyi bacar!

***II Ədəbiyyat Müəllimi:*** Dəyərli qonaqlar, məktəblilər, sizlərə sirli-sehrli dünyamız: Azərbaycan kəlağayısı haqqında danışmaq istərdim. Kəlağayı təkcə ədəbiyyatımızın nəsr sahəsində deyil, nəzm sahəsində də dəfələrlə müracət edilən motivlərdəndir.

Bildiyiniz kimi mənəvi xalq sənətinin ən mühüm sahələrindən biri də kəlağayıçılıqdır. Azərbaycanda kəlağayıçılığın dəqiq tarixi məlum deyil. Bu barədə alimlər tərəfindən müxtəlif fikirlər irəli sürülür. Məsələn, akademik Əbdülkərim Əlizadə "Hüdud əl-aləm"ə istinadən X əsrdə toxuculuğun əsas mərkəzlərindən olan Bərzənd şəhərində baş örtüyü istehsal olunduğunu qeyd edir. Burada hansı növ baş örtüyündən söhbət getdiyi məlum olmasa da, "Əcayib-əd dünya" adlı XIII əsrə aid anonim mənbədə Təbrizin sənət məhsulları içərisində güləbətinlə tikilmiş xüsusi baş örpəyinin adı çəkilir. XVII əsr Hollandiya səyyahı Yan Streys də Şamaxı zadəganları arasında şöhrət qazanmış güləbətin toxumalı yüksək keyfiyyətli baş örtüyündən bəhs edir. Lakin bu baş örtüyünün kəlağayı olmadığı dəqiqdir, ona görə ki, güləbətin toxuma texnikası ilə hazırlanmış məlumat ona basmaqəlib üsulu ilə əlavə bəzək vurulmasını tamamilə istisna edir.

Bununla belə, məşhur türk səyyahı Evliya Çələbinin Naxçıvan kişilərinin qələmkar parçadan köynək geyindikləri haqda məlumatı, hələ XVII əsrə qədər Azərbaycanın toxuculuq mərkəzlərində basmanaxış üsulu ilə bəzək texnikasının özünün yüksək inkişaf mərhələsində olduğunu sübut edir. Başqa sözlə desək, kəlağayı hələ çox uzaq keçmişdə Azərbaycanın ənənəvi şərbaflıq mərkəzlərinin, demək olar ki, hamısında "çarqat", "örpək" və s. bu kimi adlarla istehsal edilib.

Onu da qeyd edək ki, dekorativ-tətbiqi sənət məhsulları içərisində özünün orijinal bəzək texnikasına görə kəlağayının xüsusi yeri var. Belə ki, bütün orta əsrlər boyu həm texnoloji, həm də məzmun etibarilə təkmilləşən və inkişaf edən kəlağayıçılıq sənəti XVIII-XIX əsrlərdə Azərbaycanda öz inkişafının ən yüksək mərhələsinə çatıb. Belə ki, G.Forsterin 1784-cü ilə aid məlumatında qeyd edilir ki, Şirvandan 400 tona qədər ipək Həştərxana göndərilirdi. Ədəbiyyat və çöl-etnoqrafik materialları isə sübut edir ki, həmin ipəyin mühüm bir hissəsi Basqalın payına düşüb və bu sırada kəlağayı mühüm yer tutub. Həmin dövrdə Gəncə, Şuşa, Şəki şəhərləri ilə bərabər, Basqal Azərbaycanın ən böyük ipəkçilik mərkəzlərindən biri olub. Əsrlər boyu bu diyarda kələğayıçılıq sənətinin  mahir biliciləri və ustalarının əməyi sayəsində basmaqəlib üsulu ilə al-əlvan naxışlı kəlağayının zəngin nümunələri hazırlanıb. Onlar həmçinin milli naxış örnəklərinin qorunub saxlanılmasında və nəsildən-nəsilə ötürülməsində də böyük xidmətlər göstəriblər.

Lakin XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın ənənəvi kəlağayıçılıq mərkəzləri müxtəlif siyasi və sosial-iqtisadi səbəblər üzündən, xüsusilə də Rusiyadan daxil olan ucuz fabrik mallarının kustar karxana məhsullarını sıxışdırması nəticəsində mövqeyini dəyişmiş və kəlağayıçılıq tədricən yalnız iki mərkəzdə – Basqal və Gəncədə cəmləşməyə başlanıb. Məhz bu dövrdə Basqal kəlağayı istehsalında nəinki Azərbaycanda, eləcə də bütün Cənubi Qafqazda aparıcı mövqe tutub. Statistik məlumatlara görə, Birinci dünya müharibəsi ərəfəsində Basqalda 1500 dəzgaha malik 900 kustar şərbafxana vardı ki, burada il ərzində 1 milyon 800 min ədəd kəlağayı istehsal olunurdu. Hətta, deyilənə görə, bu qədər kəlağayını boyamağa Basqal

boyaqxanalarının gücü çatmadığından, onların xeyli hissəsi Şamaxı, Gəncə və Bakıya göndərilirdi.

***Basqalda kəlağayıçılıq əsl xalq sənəti idi***. Ağsaqqalların söylədiyi kimi, yaxın keçmişə qədər qəsəbədə sex və ya toxucu karxanası olmayan insanlar belə evinin bir küncündə dəzgah quraşdırıb, bu incə sənətlə məşğul olublar. Kələğayı ustaları axşama qədər həmin dəzgahın arxasından durmayıblar. Tədqiqatçı Tahir Cəfərlinin də qeyd etdiyi kimi, hər evdən dəzgahın məkisinin nəğməni xatırladan ahəngdar səsi – "çak-çuk, çak-çuk"u eşidilərdi. Evin övrəti, kiçik yaşlı uşaqları dəzgahın işləməsinə xidmət edərdilər: qadınlar dəzgahın altında ipək sarıyar, uşaqlar cəhrəyə bənzər alətdə lülələri ipək sapla doldurar, kişilər isə kəlağayı toxuduqca, bütün əzalarını – əllərini, ayaqlarını, bellərini, boyunlarını, hətta fikirlərini də işlədərdilər... Bir sözlə, ailə özlüyündə dəzgahla birlikdə vahid və mükəmməl bir mexanizmi xatırladırdı. Bunlardan biri bu prosesdən qıraqda çalışardısa, iş ahəngi pozular, məhsuldarlıq azalardı. Hamının çörəyi, ailənin ruzisi dəzgah arxasında oturub səhərdən axşama qədər işləyən ailə başçısından, yaxud onu əvəz edə bilən oğullarından asılı idi. Basqalda əsrlər boyu vərdiş halına keçmiş bu həyat tərzini heç nə və heç kim poza bilməyib.

Basqalda bir çox nəsillər əsrlər boyu bu sənəti davam etdirib və zaman keçdikcə bir-birinə ötürüblər. Nadir hallarda həmin nəsillərin nümayəndələri dədə-babadan qalma sənətlə deyil, başqa işlə məşğul olublar. Həmin nəsillərin nümayəndələrindən indi də Basqalda yaşayanları var. Onlardan biri də usta Abbasəli Talıbovdur. Usta Abbasəli deyir: "...Bu sənət bizdə nəsillikcədir. Mən atam Əlişahdan, o, öz atası Talıbdan, Talıb da ulu babam Nağıdan öyrənib".

Əlli üç yaşlı Abbasəli irsən gələn bu sənətin incəliklərindən həvəslə söhbət açmaqla bərabər, hazırladığı kəlağayı

nümunələrinin naxışlarını da az qala həzin bir bayatı kimi zümzümə edirdi: "...Bu da səkkiz qanadlı ulduz - qızıl gül-çiçək, onların arasında - tən ortada xonçadır, gəlin köçən qızlara şirni aparılan xonça...".

Basqal ustalarının bədii təfəkkür məhsulu olan kələğayıların özünəməxsus və orijinal kompozisiyası, yüksək keyfiyyəti, bəzək elementləri, harmoniyası ona başqa ölkələrdə də böyük maraq oyadıb. Təsadüfi deyil ki, Basqal ustaları XIX yüzilliyin ortalarından başlayaraq, Rusiya və Qərbi Avropa ölkələrində keçirilən müxtəlif beynəlxalq sərgilərdə özlərinin çoxçeşidli sənətkarlıq məmulatı ilə çıxış etməyə başlayıblar. Bu sərgilərdə Əliabbas Cəbrayıl oğlu, Məşədi Həbibulla Hacı Abbas oğlu, Hacıbağır Mirzə oğlu, Hacı Ələkbər Hacı Seyid oğlu və başqaları təqdim etdikləri məhsullara görə yüksək mükafatlara layiq görülüblər. Məsələn, 1862-ci ildə Londonda keçirilən ümumdünya sərgisində basqallı toxucu Nəsir Əbdüləziz oğlu kəlağayı və qanovuz parçaya görə sərginin medalı və xüsusi diplomu ilə təltif olunub. Basqalda yaşlı nəslin nümayəndələri söyləyirlər ki, kəlağayı ustası Londondan qayıdarkən sərgi ilə bağlı təəssüratlarını belə ifadə etmişdi: "...İngilis xanımları macal vermədilər ki, camaat bir kəlağayıya tamaşa etsin. Bir anın içində yarmarkada keçirilən satış sərgisində hamısını aldılar. Qaldım mat-məəttəl. Gərək çox aparaydım. Allah qoysa, bu səfər çox apararam".

1902-ci ildə Tiflisdə çağırılmış Qafqaz kustar sənayesi işçilərinin 1-ci qurultayına aid bir sənəddə isə aşağıdakı maraqlı fikirlər əksini tapıb: "...Ustaların hamısı (kəlağayı ustaları nəzərdə tutulur – red.) savadsız olsalar belə, sənətkarlıqda öz avropalı həmkarlarını arxada qoyurlar. Onların hazırladıqları məmulat öz bədiiliyi və yaraşığı ilə adamı heyran edir. Avropada işlədilən maşınlar və başqa

dəzgahlar burada yoxdur. Onların hazırladıqları məhsul gərgin işin və bacarıqlı əllərin bəhrəsidir".

Basqallılar əsrlər boyu Avropanın və Şərqin bir sıra ölkələri ilə sıx ticarət əlaqələri saxlayıblar. Onların səsi-sorağı Rusiyadan, Orta Asiyadan və hətta, uzaq Hindistandan gəlib. Kəlağayıya başqa yerlərdə böyük tələbat olduğundan basqallı sənətkarlar bütün ili işləyib hazırladıqları kəlağayıları Aşqabada, Daşkəndə, Buxaraya, İran və başqa ölkələrin bazarlarına çıxarıblar. Hətta, bəzi ölkələrdə və şəhərlərdə basqallılara məxsus kəlağayı sexləri də fəaliyyət göstərib. Məsələn, tədqiqatçıların söylədiklərinə görə, ötən əsrin 30-cu illərində Özbəkistanın Səmərqənd şəhərində basqallıların sexi olub və orada çox nəfis kəlağayılar istehsal edilib.

Basqal kəlağayılarının özünəməxsus kompozisiyası, rəmzi mənası, bəzək elementləri, eyni zamanda, rəng koloriti olub. Bu kəlağayılarda yurdumuzun təbii gözəllikləri ilə bərabər, xalq məişətinin bir çox xüsusiyyətləri, milli-mənəvi dünyamızla bağlı mərasim və hadisələri, xalq sənətinin müxtəlif sahələrini təcəssüm etdirən naxış və ornamentlər də öz əksini tapıb: "Yeddi rəng" (ispirəy), "Heyratı", "Bəstə-nigar", "Gəlinlik" (qıraqları yaşıl, ortası qırmızı), "Noxudu", "Mixəyi", "Yaşıl-qara", "Yemişani", "Zeytuni", "Ağzəmin-zanbağı", "Ağzəmin-qızılı", "Qızılı" və s. adda kəlağayıların hər biri əslində bir dastan, bir nağıl, bir nəğmədir. Müxtəlif zoomorf, həndəsi və nəbati naxışlarla zəngin olan bu kəlağayıların hər birinin adının və naxışlarının fəlsəfəsi, təyinatı, xalq məişətində özünəməxsus yeri var. Yeri gəlmişkən onu da qeyd edək ki, XIX əsrdə və XX əsrin əvvəllərində Basqalda Usta Hacı Həmid Talıb oğlu, Kərbəlayi Abdulxaliq Əşrəf oğlu, toxucu Əliabbas Cəbrayıl kimi çox məşhur basmanaxış ustaları fəaliyyət göstərmişlər.

Kəlağayının istehsalının texnoloji xüsusiyyətlərindən danışan Basqaldan olan mütəxəssisin sözlərinə görə, gündə 25-30 kəlağayı istehsal etmək mümkündür. İstehsal prosesi bir-birini ardıcıl izləyən bir çox sənət və peşələrin sintezindən ibarətdir. Buraya əyirici, toxuyucu, boyaqçı və naxışbasma iş sahələri aiddir. Bunlar bir müəssisədə ayrı-ayrı peşəkar ustalar və ya bir peşəkar usta tərəfindən icra olunub ki, onlar da xalq arasında "ustakar" adlanıb.

Kəlağayını zinətləndirən, şöhrətləndirən, ilk növbədə, onun rəng simvolikası idi ki, bu da boyaq maddəsinin keyfiyyəti ilə bərabər, boyaqçının özünün yaradıcılıq fantaziyasından, rəngin koloritindən, rəngləri seçmək və bir-biri ilə uzlaşdıra bilmək bacarığından asılı idi. Bu mənada kəlağayı boyaqçılığı ənənəvi boyaqçılığın digər sahələrindən, o cümlədən ipək boyaqçılığından xeyli fərqlənir. Bu barədə də bizə Abbasəli usta məlumat verir. Tələsmədən kağız üzərində müxtəlif cizgilər cızan usta qeyd edir ki, bu naxışların neçə-neçə yüzillik tarixi var və nəsildən-nəsilə keçərək günümüzə gəlib çatıb. Lakin çox hallarda onlar olduğu kimi köçürülmür, hansısa rəng yenilənir, əlavə bəzəklər edilir və beləliklə, yeni kəlağayı öz görkəmini az da olsa dəyişir. Abbasəli usta deyir ki, "çox yerə gedib bu kəlağayılar. Kim bilir, bəlkə də ən məşhur muzeylərə gedib çatıb, sərgiləri bəzəyib...".

Abbasəli ustanın sözlərinə görə, əksər hallarda naxışları ustalar özləri fikirləşir və çox vaxt bunu sirr olaraq saxlayırdılar. Bu da Azərbaycan sənətkarlığının əsas xüsusiyyətlərindən biri idi.

Kəlağayının naxışlanması prosesi bir neçə mərhələdən keçirdi. Əvvəlcə kəlağayının boyanı yaxşı götürməsini təmin etmək məqsədilə onu qəlyadaşından hazırlanmış "sirab" adlanan məhlulda bişirirdilər. Çünki kəlağayı boyaqxanaya

daxil olana qədər uzun istehsal prosesindən keçsə də, onun üzərində selikli yapışqan təbəqəsi hələ də qalırdı və bu da boyama prosesində məmulatın rəngi tam götürməsinə mane olurdu. Buna görə də məmulat tiyanda hazırlanmış məhlulda (sirabda) bişirilib yapışqan təbəqəsindən azad olduqdan sonra sərilib qurudulur, bundan sonra boyama prosesi üçün hazır hesab olunurdu.

Kəlağayı üzərindəki naxışlar aşağıdakı əsas qruplara ayrılırdı: kəlağayının qıraqları boyunca vurulan və haşiyə əmələ gətirən şəkillər; künclərə və ortaya vurulan təsvirlər. Bu təsvirlər və ya naxışlar arasında "buta"nın həmişə özünəməxsus yeri olub.

Azərbaycan dekorativ tətbiqi incəsənətində, o cümlədən kəlağayıçılıqda geniş tətbiq olunan bu ornamentin forma və quruluşuna görə, "saya buta", "əyri buta", "dilikli (və ya dişli) buta", "qıvrım buta", "qarmaqlı buta", "şabalıd buta", "badamı buta", "dik (və ya iti uclu) buta", "qoşa buta", "qotazlı buta" və s. kimi növləri məlumdur. Azərbaycanın ayrı-ayrı regionlarında hazırlanan butalar bir çox hallarda elə həmin regionların adları ilə də adlandırılır: "Muğan-buta", "Bakı-buta", "Xilə-buta", "Şirvan-buta" və s. Qəliblər, adətən, meşə armudunun oduncağından hazırlanırdı ki, bu da keyfiyyətinə və möhkəmliyinə görə digər ağac materiallarından üstün idi.

Lakin kəlağayını, eyni zamanda, rəngləmək texniki baxımdan mümkün deyildi. Naxışlanma, bir qayda olaraq, kəlağayının yelən hissəsindən başlanırdı. Əsas naxışlar da elə yelənə salınır və orta hissə, adətən, saya saxlanırdı. Basmaqəlib ustaları hər vəchlə materiala qənaət etməyə çalışırdılar. Bunun üçün ilk "qondarma" kəlağayının öz təbii rəngindən götürülürdü. Usta əməliyyatı qəlibi yağa batıraraq kəlağayının kənarı boyunca ardıcıl, simmetriyanı pozmadan,

diqqətlə basaraq yerinə yetirirdi. Bunun üçün ustadan alıcı göz, yüksək səriştə, əldən itilik tələb olunurdu. Birinci qondarmanı yerinə yetirdikdən sonra kəlağayının həmin hissəsi əllə dəstələnib yığılır, qalan hissə, yəni yağ örtüyü çəkilməmiş hissə qarğıya sarınırdı. Növbəti əməliyyatla kəlağayının yeləni nəzərdə tutulmuş rəngaba salınıb boyanırdı. Rəng tutduqdan sonra məmulatı sıxaraq asıb qurudur, yenidən boyaq masasının üzərinə sərərək rəngdən gül götürülürdü. Basma əməliyyatı başa çatdıqdan sonra kəlağayıları sabun qatışıqlı qaynadılmış su ilə dolu qazanlara dolduraraq piy-rəng kütləsi təmizlənənə qədər yuyur və iplərdən asaraq qurudurdular. Qurudulmuş yaylıqları dörd-dörd dəstəçin edib hamarladıqdan (ütülədikdən) sonra "məngənə" adlanan dəzgahda iki taxta arasında yerləşdirir və taxtaları yanlardan vintlərlə bərkidirdilər.
Kəlağayılar taxta məngənə arasında 2-3 saat ərzində sıxılmış vəziyyətdə saxlandıqdan sonra onların bir üzünü açıb ipə asırdılar. Nəmliyi bir qədər çəkildikdən sonra onları sərgidən yığıb qatlayır və yenə də dəstə halında üst-üstə yığaraq ikinci dəfə məngənəyə verirdilər. Dəstəçin edilmiş kəlağayı bu vəziyyətdə bir gün ərzində qalıb "qatını götürürdü".
Onu da xatırladaq ki, sənətkarlarımızın sarı, qırmızı, yaşıl parçalardan hazırladıqları güllü-butalı kəlağayılar baş geyim növü kimi orta əsrlərdən bəri milli qadın geyim dəstini tamamlayıb və qız-gəlinlərimizin, nənələrimizin nurlu simalarını daha da yaraşığa gətirib. Təsadüfi deyil ki, XVI-XIX əsrlərin şifahi xalq ədəbiyyatı nümunələrində – dastan, qoşma, gəraylı və bayatılarımızda, xüsusilə də aşıq poeziyasında kəlağayı, çalma və çarqat haqqında çox maraqlı poetik fikirlər əksini tapıb. Onların bəzilərini təqdim edirik:

Vəsməni çəkibdi qələm qaşına,
Ağ ipək çalmanı salıb başına...

(Əsli və Kərəm)

* * *

Kəlağayın ucu sarı,
Açılır könlüm qubarı,
Söylə görüm kimin yarı,
Yaxan düymələ, düymələ!

(Əsli və Kərəm)

Bir sıra aşıq qoşmalarında telləri qızıl düymələrlə, sinələri əlvan muncuqlarla, qulaqları aypara, minarə sırğalar, belləri zərbaf kəmərlə, bədənləri çəpkənli, əlvan naxışlı köynəklə, güllü-butalı kəlağayılarla (çarqatla) bəzənmiş, sürməli qaş-gözlü el qızları, el gəlinləri tərənnüm olunmuşdur:

Başına örtübdür kəlağayı gəzər,
Əyri tel üstündən qızıl düymələr.
Belinə yaraşıb zərbafdan kəmər,
Çəpkənli, çarqatlı ağ bədən gəzər.

(Aşıq Abbas Tufarqanlı)

* * *

Gah zaman başına tirməşal bağlar,
Gah olur ki, zülf gizləyib, xal bağlar.
Kəlağayı qabağına al bağlar,
Yaşılın altından, ağın üstündən.

(Molla Pənah Vaqif)

* * *

Kəlağayı əlvan, qəsəbə qıyqac,
Altından cunası, hayıf ki, yoxdur.
(Molla Pənah Vaqif)

* * *

Kəlağayı altında olmayıb cuna,
Üzməyib göllərdə yaşılbaş sona,
Bax, nələr yaranıb, Milə-Muğana,
Vaqif elə görüb, mən belə gördüm.

(Aşıq Şəmşir)

Xalq şairi Səməd Vurğun da öz əsərlərində al qumaş, atlas, al şal, tirmə şal, xara və s. kimi ipək parçaların adlarını çəkmiş, qız-gəlinlərimizin öz geyim dəstində ipək parçalara daha çox üstünlük verdiklərini xüsusi vurğulamışdır. Şairin yaşadığı dövrdə də kəlağayının Azərbaycan qadınının əsas baş geyim növü olması faktını onun dillər əzbəri olan aşağıdakı misraları da təsdiq edir:

...Gecənin sarvanı o ulduz, o ay,
Anamın örtdüyü sarı kəlağay.
Sözümdə qalmışdır ömrüm uzunu,
Bəlkə də şairin taleyidir bu...

...Basqalda dünyada yeganə olan bir muzey də fəaliyyət göstərir: çoxəsrlik Basqal sənətkarlığının incilərindən olan kəlağayıçılığın tarixini səhifə-səhifə göz önündə canlandıran, köçüb getmiş nəsillərin yadigarı, uzaq illərin-əsrlərin şahidi olan Kəlağayı Muzeyi! Basqal ipəkçilik müəssisəsinin nəzdində yaradılan və fəaliyyət göstərən muzeyin şərəf lövhəsini zaman-zaman bu incə sənətin şöhrətini bütün dünyaya yayan, bununla da Azərbaycana şərəf və başucalığı

gətirən insanların şəkilləri bəzəyir: Əliabbas Cəbrayıl oğlu, Kərbəlayi Nəsir  Əbdül Əziz oğlu, Məşədi Həbibulla Hacı Abbas oğlu, Hacıbağır Mirzə oğlu, Hacı Ələkbər, Hacı Seyid Məhəmməd oğlu və başqaları.

Basqala təşrif buyuran turistlər və xarici qonaqlar muzeyə böyük maraq göstərirlər. Burada nümayiş olunan eksponatlar içərisində neçə-neçə incə kəlağayı naxışlarından xəbər verən qəlib nümunələri, boyaqxana ləvazimatları, zərif saplar, müxtəlif bitkilərdən alınmış rəng nümunələri, zövqlə işlənmiş bədii tikmələr, bəzək nümunələri, bərli-bəzəkli yorğan üzləri qədim dəzgahların hissələri, bolluq və cəsarət rəmzi sayılan qoç buynuzlu, “S”-vari bəzəklər, butalar, sünbül, gül yarpaq şəkilləri, həndəsi ornamentlər və nəhayət, bərli-bəzəkli kəlağayı nümunələri nümayiş olunur.  “Heyratı” (və ya Heratı), “Bəstə-nigar”, “Gəlinlik”, “Qızılı”, “Mixəyi”, “Noxudu”, “Ağzəmin zanbağı”, “Ağzəmin-qızılı”, “Bənövşəyi, “Yaşıl-qara”  və s. kəlağayılar isə bu muzeyin ən qiymətli eksponatlarıdır. Təsadüfi deyil ki, bu gün Azərbaycana – qədim Şirvan torpağına təşrif buyuran və Basqal kəlağayı ustalarının sorağını eşidən hər kəs muzeyə gəlir və bu sirli-sehrli dünyanın möcüzələrini gözləri ilə görür. Həmin möcüzələr isə bu günün insanlarına, xüsusilə də gənclərdə bu sənətə həvəs yaratmaqla bərabər, onlarda ulu tariximizə, keçmişimizə və soykökümüzə məhəbbət hissləri aşılayır.

Beləliklə, səsi-sorağı əsrlərin dərinliklərindən gələn ulu kəlağayıçılıq sənətini yaşatmaq, inkişaf etdirmək, Azərbaycan kəlağayısının keçmiş şöhrətini qaytarmaq hər birimizin qarşısında müqəddəs borc kimi ortaya çıxır. Bu gün Basqalda xalqımızın dəyərli ziyalıları – Rəna xanım İbrahimbəyova və Cəlil İbrahimbəyovun təsisçiliyi ilə fəaliyyət göstərən Basqal İpəkçilik Mərkəzi də bu ulu sənətin

yaşadılması və dirçəldilməsi yolunda mühüm addımlardan biri kimi sayıla bilər. Çünki mərkəzdə təkcə kəlağayı istehsalı ilə məşğul olunmur, eyni zamanda, təcrübəli ustaların rəhbərliyi altında gənc və yeniyetmə basqallılara sənətin sirləri öyrədilir ki, bu da gələcəyə ümidlə baxmağa imkan verir. Rəna xanımın da qeyd etdiyi kimi, biz kəlağayılarımızın səsini-sorağını yalnız keçmişdən almamalı, onun haqqında keçmiş zamanda danışmamalı və onları yalnız muzey eksponatı statusunda görməməliyik! Azərbaycan kəlağıyısı öz keçmiş şöhrətini qaytarmalı və onun milli-mənəvi dəyər kimi təbliği və tətbiqi təmin edilməlidir. Bu mənada inanmaq istərdik ki, ən yaxın zamanlarda təkcə Basqalda deyil, ənənəvi kəlağayıçılıq mərkəzlərinin hər birində ulu babalarımızın müqəddəs irsi olan kəlağayıçılıq sənətinin inkişafı üçün lazım olan hər bir şərait yaradılacaqdır. Elə müstəqil Azərbaycan dövlətinin və onun rəhbərliyinin gördüyü böyük işlər də buna stimul verir. Belə ki, bu yaxınlarda KİV səhifələrində yayılan xoş xəbər hər kəsi sevindirdi: UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da keçirilən iclasında Azərbaycan kəlağayı sənəti "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib! Bununla da Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi, ölkəmizin UNESCO yanında daimi nümayəndəliyi, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birgə həyata keçirdikləri çoxşaxəli fəaliyyət nəticəsində komitə kəlağayı sənətinin Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi olduğunu beynəlxalq səviyyədə təsdiq etmiş oldu. Azərbaycanın mədəni həyatında baş verən bu tarixi hadisə həm də Prezident

İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunmasına, təbliğinə və inkişafına göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir. Sonda onu da vurğulayaq ki, “Kəlağayı” faylı Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın dəstəyi ilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanıb.

***III Ədəbiyyat müəllimi***: Azərbaycanda milli mədəniyyətimizin və incəsənətimizin tərəqqisinə böyük diqqət göstərilir. Mədəniyyətimizin inkişafına hər zaman xüsusi qayğı göstərmiş, sənət adamlarından dəstəyini heç zaman əsirgəməmiş ümummilli lider Heydər Əliyevin qoyduğu ənənəni bu gün Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva ölkə daxilində və xaricində həyata keçirilən böyük layihələrin timsalında davam etdirirlər.

Qədim mədəniyyətimizin bir parçası olan kəlağayı sənətinin yaşadılması yönündə də son illər ölkəmizdə xeyli mütərəqqi addımlar atılıb. Belə ki, 2014-cü ildə kəlağayı sənəti “Kəlağayı simvolizmi və ənənəvi sənəti” adı ilə UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

Azərbaycanda kəlağayıçılığın dəqiq tarixi məlum deyil. Qazıntılar zamanı ipək parçalardan hazırlanan geyim qalıqları arasında kəlağayıların da tapılması onun Azərbaycan xalqına məxsus geyim forması kimi hələ qədim dövrlərdən mövcud olduğunu deməyə əsas verir. Bu baxımdan ipəkdən toxunan qadın baş örtüyü kimi kəlağayı qədim Azərbaycanın geyim etnologiyasının bir hissəsidir.

Əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə keçərək zəmanəmizə qədər gəlib çatan bu sənət növü haqqında hələ qədim yunan

tarixçiləri Herodotun, Strabonun əsərlərində Qafqazda basma üsulla parçalara naxış salınması barədə qeydlər vardı.

*İsmət və saflıq simvolu*

Xalqımızın şifahi xalq ədəbiyyatı nümunələrində, xüsusilə də aşıq poeziyasında kəlağayı haqqında olduqca maraqlı, poetik fikirlər əksini tapıb. Böyük Azərbaycan şairi Molla Pənah Vaqif "Gülgün sərəndazın təzə gül kimi" və "Hayıf ki, yoxdur" adlı qoşmalarında kəlağayını belə təsvir edir:

Gah zaman başına tirmə şal bağlar,
Gah olur ki, zülf gizləyib, xal bağlar.
Kəlağayı qabağına al bağlar
Yaşılın altından, ağın üstündən,

* * *

Kəlağayın ucu sarı,
Açılır könlüm qubarı,
Söylə görüm kimin yarı,
Yaxan düymələ, düymələ!

Haqq aşığı Aşıq Ələsgər də dillər əzbəri olan qoşma və gəraylılarında kəlağayı örtmüş xanımın şəninə misralar düzərdi:

Gözəl, sənin nə vədəndi,
Kəsilib qısa tellərin?
Kəlağayı əlvan, qıyqacı,
Üstündən basa tellərin.

* * *

Başında herat kəlağay,
Hər paltarı darayıdı;
Bəşərə bənzətmək olmaz,
Göydə mələklər tayıdı.

**İpək qanadlar**

Qız-gəlinlərimizin, nənələrimizin nurlu simasına yaraşıq verən kəlağayı üzərindəki naxışlar arasında "buta"nın həmişə özünəməxsus yeri olub.

Qeyd edək ki, gənc qızların, orta və yaşlı qadınların örtdüyü kəlağayılar bir-birindən fərqlənirdi. Adətən, toy zamanı gəlinin başına qırmızı kəlağayı örtər, yasda hər kəs qara kəlağayıya bürünərdi. Gənc qadınlar və qızlar kəlağayını "örpək", yaşlı qadınlar isə "çalma" və ya "dingə" üsulu ilə bağlayardılar.

Görkəmli sənətkar Hüseynqulu Sarabski XX əsrin əvvəllərində İçərişəhərdə keçirilmiş xınayaxdı mərasimini belə təsvir edir: "Cavan gəlinlər və qızlar xına isladar, dəf-dumbul çalğısı ilə gəlini gətirib oturdardılar. Qızlar ipəkdən sadə paltar geyinərdilər, saçlarını ortadan ayırıb hörərdilər və bəzəkləri olmazdı. Onlar başlarına kəlağayı örtərdilər. Gəlinlərin isə çətiri, bala birçəyi, həmayılı, cütqüqabağısı, ağ qızılı olardı. Yaşlı qadınlar tünd rəngli xaralardan paltar geyinər, başlarına isə dügürd kəlağayıdan çalma salardılar".

*Mentalitetimizin keşikçisi*

Kəlağayını Azərbaycanda vaxtilə yeni qurulan ailənin təməli hesab ediblər. Qızlar sevdikləri oğlanın elçi göndərməsinə razılıqlarını ona kəlağayısını verməklə bildirərdilər. Kəlağayını oğlana bağışlayan qız eşqinə ömürlük sadiq qalacağına and içərmiş.

Ənənəyə görə, uşaq dünyaya gələndə onu anasının gəlin gedərkən başına örtdüyü qırmızı kəlağayıya bükərmişlər.
Müharibənin, qan tökülməsinin qabağını almaq istəyən analarımız, nənələrimiz döyüşən tərəflərin arasına kəlağayı atanda onlar əl saxlayıb geri durar, kəlağayını ayaqlamazdılar.
Araşdırdıqca görürsən ki, kəlağayı sosial fərqləri də aradan qaldırıb, varlı qadınların kəlağayısı yoxsul qadınların kəlağayısından seçilməyib.
*Həm tariximiz, həm bu günümüz*
Bu gün səs-sorağı əsrlərin dərinliklərindən gələn ulu kəlağayıçılıq sənətinə maraq getdikcə artır. Sənətkarların xam ipəkdən hazırladıqları al-əlvan, zərif kəlağayılar dünyanın bir sıra ölkələrinə ixrac olunur. Əsrlər boyu Azərbaycan qadınının, qız-gəlinlərimizin ismət, həya, xanımlıq simvolu sayılmış kəlağayı müasir dövrdə də öz dəyərini qoruyub saxlayır.

Mövzu ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasının kitabxananın fondu əsasında hazırladığı Ədəbiyyat siyahısı

**Kitablarda**

Azərbaycan xalçaları : elmi publisistik jurnal. C. 5. - №15 = Azerbaijani carpets =
Азербайджанские ковры. - İstanbul : "Azər-ilmə"MMC, 2015. - 144 s.

**Babayev T. A.** Basqal : Tarixi-etnoqrafik tədqiqat. - Bakı : Elmi İnkişafı Fondu, 2017. - 342 s.

**Fərzi Q.** Qırmızı kəlağayı. - Bakı : Qanun, 2010. - 187 s.

**Dövrü mətbuatda**

**Azəri L**. Kəlağayı əlvan... // Mədəniyyət : qəzet. - 2023. - 12 may. - № 36. - S. 6.

**Babayev T.** Basqal kəlağayı muzeyi // Xalq qəzeti. - 2014. - 2 mart. - № 46. - S. 6.

**Babayev T.** Sirli-sehrli dünyamız: Azərbaycan kəlağayısı haqqında bir neçə söz // Xalq qəzeti. - 2015. - 11 yanvar. - № 7. - S. 7.

**Bəybalayev B.** Gözəllik simvolu : kəlağayı // Respublika. - 2022. - 26 noyabr. - № 258. - S. 12.

**Fərəcov S.** Basma naxış kəlağayılar // Mədəniyyət. - 2009. - 20 noyabr. - N 84. - S. 14.

**Fərəcov S.** Başına örtübdür kəlağayı gəzər... // Mədəniyyət. - 2014. - 1 avqust. - № 58. - S. 15.

**İbrahimoğlu E.** Batika : Qədim Kəlağayı sənətinin çağdaş varisi // Mədəniyyət. - 2010. - 26 noyabr. - N 83. - S. 15.

**İbrahimov T.** Kəlağayı sevgisi : Əzizə Cəfərzadənin əsərlərində kəlağayı haqqında qeydlər // İşıq. - 2022. - № 3. - S. 32.

**İbrahimov T.** Kəlağayı sevgisi : Əzizə Cəfərzadənin əsərlərində kəlağayı haqqında qeydlər // İşıq. - 2022. - № 3. - S. 32.

Kəlağayı **- Azərbaycan** ipəyinin incisi" Daşkənddə nəşr edilib : Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət mərkəzinin (AMM) layihəsi əsasında "**Kəlağayı** - Azərbaycan ipəyinin incisi" adlı kitab özbək və rus dillərində paytaxtdakı "Mashur-press" nəşriyyatında çapdan çıxıb // Kaspi. - 2018. - 7-9 aprel. - № 61. - S. 7.

Kəlağayı : Nənələrin baş örtüyü // Göy qurşağı. - 2020. - № 3. - S. 18-19.

Kəlağayı **tariximiz və** mədəniyyətimizdir // Palitra. - 2019. - 17 dekabr. - № 154. - S. 2.

**Məmmədova S.** Tikmə sənəti və onun özəllikləri // Mədəniyyət.az. - 2018. - № (322). - S. 104-107.

**Milli** kəlağayı **sənəti** - 5 il dünya xəzinəsində // Mədəniyyət. - 2019. - 27 noyabr. - № 86. - S. 1.

**Mirzəliyev C.** Xalq sənəti nümunələri : Şəkidə xalq sənəti haqqında // Mədəniyyət. - 2008. - 30 avqust. - S. 6.

**Nərimanoğlu M.** Kəlağayılar : Azərbaycan xalqının mədəni tarixini yaşadan sənətkarlıq nümunələrindən biri kimi UNESCO-nun qeyri-maddi mədəni irsi siyahısına daxil edilib // Azərbaycan : qəzet. - 2015. - 3 fevral. - № 25. - S. 7.

**Nəsib V**. Gözəllik ondur, doqquzu dondur : Milli geyimlərimiz haqqında // Azərbaycan : qəzet. - 2019. - 12 iyul. - № 149. - S. 11.

**Sadıqlı F.** Nənələrimizin yadigarı :çiçək haşiyəli, buta yelənli kəlagayı // Azərbaycan : qəzet. - 2015. - 8 mart. - № 54. - S. 3.

**Soltan M.** Kəlağayı // İşıq. - 2022. - № 1(109). - S. 14-18.

**Soltan M.** Kəlağayı nağılı // Qobustan. - 2014. - № 1. - S. 33-38.

**Şükürova F.** Milli Azərbaycan qadın geyiminin qədim atributu - kəlağayı // Palitra. - 2017. - 3 mart. - № 40. - S. 15.

# Azərbaycan qadınının gözəllik rəmzi - Kəlağayı

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**